Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Uşaq dünyasının xeyirxah sehrbazı – Korney Çukovski

Rus uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Korney Çukovskinin anadan olmasının 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı - 2017**

**Tərtibçi:** **Təranə Hacıyeva**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**“Uşaq dünyasının xeyirxah sehrbazı – Korney Çukovski”** metodik vəsait / tərt.ed.: T.Hacıyeva; red. S.Məlikzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı, 2017. - 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Rus şairi, publisisti, ədəbi tənqidçisi və uşaq yazıçısı Korney İvanoviç Çukovski (əsl adı Nikolay Vasilyeviç Korneyçukov) 19 (31) mart 1882-ci ildə Sankt-Peterburqda anadan olmuşdur. Ədəbi fəaliyyəti çoxcəhətli olan görkəmli yazıçı hər şeydən öncə şeir və nəsrlə yazdığı uşaq nağılları ilə şöhrət qazanmışdır.

Yoxsul ailədə dünyaya göz açan gələcək yazıçı "aşağı" təbəqədən olduğu üçün gimnaziyadan xaric olunmuşdu. Belə ki, onun anası paltaryuyan idi, atası isə onları tərk etmişdi. Lakin gənc Korney ruhdan düşmür və özü müstəqil şəkildə hazırlaşaraq kamillik attestatı alır.

Gənc yaşlarından poeziya ilə maraqlanan Korney Çukovski şeirlər, hətta poemalar yazmağa başlamışdır. O, həm də ədədi tənqidlə məşğul olurdu və qısa müddətdə bu sahədə böyük nüfuz qazanmışdı.

Korney Çukovskinin uşaqlar üçün yazmağa başlaması onun uşaq ədəbiyyatı nümunələrindən ibarət almanax tərtib etdiyi vaxta təsadüf edir. Maksim Qorki tərəfindən onun özünün də uşaqlar üçün yazması təklifini öncə çox tərəddüdlə qarşılasa da, Korney Çukovski tezliklə uşaq yazıçısı kimi şöhrət tapır. Uşaqları çox sevən, öz evində onlar üçün kitabxana açan böyük yazıçı, xeyirxah insan Korney Çukovskinin uşaqlar üçün yazdığı əsərlərinin əsas qayəsi əsl insanın tərbiyə olunmasıdır.

Yaşadığı müddətdə ümumxalq sevgisi qazanan, bir çox mükafatlara layiq görülən Korney Çukovski 2015-ci ilin məlumatına görə Rusiyada ən çox nəşr olunan müəllif olmuşdur. Onun uşaqlar üçün yazdığı "Doktor Aybolit", "Əlüzyuyan", "Barmaley", "Milçək-vizilçək" və s. əsərləri bütün dövrlərdə

uşaq ədəbiyyatının ən gözəl nümunələri olaraq qalacaqdır. Sözün əsl mənasında böyük insan və yazıçı olan Korney Çukovski özü belə deyirdi: "Nağılçının məqsədi hər nəyin bahasına olursa olsun, uşaqda insaniliyi – insanın başqalarının bədbəxtliyinə görə narahat olmaq və başqasının sevincinə şərik olmaq, onların taleyinə öz taleyi tək həssas yanaşmaq kimi gözəl xüsusiyyətləri tərbiyə etməkdir".

Görkəmli uşaq yazıçısının anadan olmasının 135 illiyi bir çox yerlərdə olduğu kimi F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da qeyd olunacaqdır. Bu məqsədlə hazırlanan metodik vəsait məktəblərdə, kitabxanalarda keçiriləcək tədbirlər üçün faydalı olacaqdır.

## Həyat və yaradıcılığı

Korney İvanoviç Çukovski 19 (31) mart 1882-ci ildə Sankt-Peterburqda anadan olmuşdur. Gələcək yazıçının uşaqlığı Odessada keçmişdir. Onunla gimnaziyada bir sinifdə oxuyanlar arasında Nikolay Jitkov, gələcək yazıçı və səyyah da var idi. Onu ədəbiyyata yaxın dostu, gimnaziyada birgə təhsil aldığı jurnalist Vladimir Jabotinski həvəsləndirmişdi. 1901-ci ildə o, "Odessa yenilikləri" qəzeti üçün məqalələr yazmağa başlayır. Onun məqalələri fəlsəfədən felyetonlara qədər ən müxtəlif mövzularda idi.

Korney İvanoviç 1903-cü ildə yazıçı olmaq qərarı ilə Peterburqa yola düşür. O, bir çox jurnalların redaksiyalarına öz yazılarını təqdim etsə də, hamısından rədd cavabı alır. Lakin bu onu ruhdan salmır, Peterburqda çoxlu ədəbiyyatçılarla tanış olur və "Odessa yenilikləri" qəzetinin müxbiri işləməyə başlayır. O, öz yazılarını Peterburqdan qəzetin redaksiyasına göndərirdi. Korney Çukovski bu qəzetin müxbiri kimi Londona ezam olunur və 1904-cü ildə Rusiyaya qayıdaraq ədəbi tənqidçi kimi öz

məqalələrini mətbuatda çap etdirir. 1917-ci ildə Maksim Qorki tərəfindən ona “Parus” nəşriyyatının uşaq şöbəsinə rəhbərlik etmək təklif olunur. Bir dəfə o, “Jar ptisa” almanaxını tərtib etməli olur. Bu adi redaktor işi Çukovskidə uşaq yazıçısının üzə çıxmasına səbəb olur. Almanax üçün özünün ilk uşaq nağılları olan “Cücə”, “Doktor”, “İtlər səltənəti”ni yazan Çukovskinin işləri diqqətdən kənarda qalmır. Maksim Qorki uşaq əsərlərinin toplusunu dərc etməyə qərar verir və Korney Çukovskidən poema yazmasını xahiş edir. Yazıçı öncə çox həyəcan keçirir, çünki əvvəllər belə fəaliyyətlə məşğul olmamışdı. Lakin təsadüf hər şeyi həll edir. Belə ki, xəstələnmiş oğlu ilə qatarla Peterburqa qayıdan Çukovski, ona qatar tıqqıltılarının səsi altında timsah haqqında nağıl danışır. Bir neçə gün keçir, yazıçı artıq bu epizodu unudur. Lakin oğlu bu nağılı yadında əzbər saxlayır. 1917-ci ildə dərc olunan “Timsah” nağılı belə yaranır. Həmin vaxtdan Korney Çukovski sevimli uşaq yazıçısına çevrilir.

Parlaq, qeyri-adi obrazlar, ciddi qafiyə onun şeirlərini yaddaqalan edir. “Timsah”dan sonra yazıçının yeni-yeni şeirləri işıq üzü görür: “Əlüzyuyan” (1923), “Qorxunc tarakan” (1923), “Milçək-vizilçək” (1924-cü ildə “Milçəyin toyu” adı ilə), “Barmaley” (1925), “Telefon” (1926), “Aybolit” (1929-cu ildə “Aybolitin macəraları” adı ilə), “Fedoranın dərdi”, “Toptıgin və Lisa” (1934), “Bibiqonun macəraları” (1945-1946) və s.

K.Çukovski yalnız öz əsərləri ilə kifayətlənmir, o uşaqlar üçün dünya uşaq ədəbiyyatının ən yaxşı nümunələrini də tərcümə edir: Kiplinq, Defo, Raspe, Uitmen və s., həmçinin Bibliya süjetləri və yunan miflərini. Çukovskinin kitablarına həmin dövrün ən yaxşı rəssamları illüstrasiyalar çəkirdilər. Bu isə onun kitablarını daha cəlbedici edirdi.

Qeyd etdiyimiz kimi, yazıçılıqla yanaşı həm də ədəbiyyatşünas olan Korney Çukovski 1952-ci ildə “Nekrasovun ustalığı” adlı monumental tədqiqat işini dərc

etdirir. Bu işinə görə o, Lenin mükafatına layiq görülür. Korney Çukovski 1962-ci ildə Oksford universitetinin fəxri ədəbiyyat doktoru adını alır.

Korney Çukovski 1969-cu ildə 87 yaşında vəfat etmişdir. Yazıçının əsərləri əsasında cizgi filmləri çəkilmişdir.

## II Bölmə. Yubiley tədbirlərinin keçirilməsi

Bu il görkəmli rus uşaq yazıçısı, ədəbiyyatşünas, tərcüməçi Korney İvanoviç Çukovskinin 135 illik yubileyidir. Bu yazıçının adı çəkilərkən dərhal onun məşhur uşaq şeirlərinin və nağıllarının qəhrəmanları göz önündə canlanır: Aybolit, Milçək-vizilçək, Əlüzyuyan, Bibiqon, Fedora və başqaları. Yazıçının yubileyi ilə bağlı Firidun bəy Köçərli adına kitabxanada da tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə hazırlanan vəsaitdə, keçiriləcək tədbirlərlə bağlı məlumat verilir. İlk öncə kitab sərgisinin qurulması vacibdir. Kitab sərgisi üçün başlıq kimi aşağıdakılardan birini seçmək olar: "Korney Çukovski – 135", "Tanış, eyni zamanda naməlum Korney Çukovski", "Uşaqlara sevinc bəxş edən yazıçı", "Uşaq ürəkli nəhəng", "Milyonların sevimlisi" və s.

"Korney Çukovski - 135" adlı sərginin nümunəsini təqdim edirik:

1. Başlıq;
2. Korney Çukovskinin portreti;
3. Kitablarının nümayişi;
4. Görkəmli şəxsiyyətlərin Korney Çukovski haqqında fikirləri.

## Görkəmli şəxsiyyətlərin Korney Çukovski haqqında fikirləri

Korney Çukovski hər şeydən əvvəl XX əsrin şeir ustaları arasında ön cərgələrdə yer tutan novator-şairdir.

**V.Novikov**
*filologiya elmləri doktoru*

Çukovskinin nağılları yalnız uşaq mütaliəsi üçün deyil. Onların demək olar ki, hamısı ciddi filoloji təhlil obyekti olmuşdur.

**A.Latınina**
*ədəbiyyatşünas*

# Kitab sərgisi
























Kitabxanada yazıçının yubileyi ilə bağlı ədəbi-bədii gecənin keçirilməsi çox əhəmiyyətlidir. Belə tədbir zamanı yazıçının portretindən istifadə olunması, kitablarından ibarət sərginin qurulması vacibdir. Ədəbi-bədii gecənin keçirildiyi zalda Çukovskinin qəhrəmanlarının obrazında olan oyuncaqların sərgisini də qurmaq olar.

**I Aparıcı:** Hörmətli tədbir iştirakçıları! Bu gün sizlərlə, məşhur uşaq yazıçısı Korney Çukovskinin 135 illik yubileyini qeyd etmək üçün bura toplaşmışıq. Balacalara, eyni zamanda böyüklərə nağıllar dünyasının qapılarını açan bu xeyirxah nağılçının əsərləri hər zaman sevə-sevə oxunur və oxunacaqdır.

**II Aparıcı:** Korney Çukovskinin əsərlərini mütaliə etmək hər zaman əsl bayramdır. Onlar uşaqların ilk dostları, böyüdükdən sonra da unutmayacaqları sevimli qəhrəmanlarıdır. Korney Çukovskinin adı onun balaca oxucularının qəlbində hər zaman işıqlı, xeyirxah xatirələr oyadacaqdır.

**I Aparıcı:** Korney Çukovski 1882-ci il martın 31-də Peterburqda anadan olmuşdur. Uşaqlığı Odessa şəhərində çox çətin, məhrumiyyətlər içində keçən gələcək yazıçı normal təhsil ala bilməmiş, lakin öz əməksevərliyi və öyrənməyə böyük

həvəsi nəticəsində müstəqil şəkildə savad almış və ingilis dilini də öyrənmişdir. Kitablara dərin məhəbbətlə bağlı olan Korney Çukovski özü də gənc yaşlarından yazmağa həvəs göstərmişdir. Yerli "Odessa xəbərləri" qəzeti üçün məqalələr yazan Çukovski yazıçı olmağı qəti şəkildə qarşısına məqsəd qoyaraq Peterburqa gəlir və burada ədəbi ictimaiyyətlə sıx əlaqələr qurur. Tezliklə nəşriyyatda uşaq şöbəsinə rəhbərlik etməyə başlayan Korney Çukovski sırf təsadüf nəticəsində özü də uşaqlar üçün yazmağa başlayır.

**II Aparıcı:** Ömrünün 67 ilini ədəbiyyata həsr edən Korney Çukovskinin bəzi nağıllarının artıq bir əsrə qədər yaşı var. Bu əsərləri nə zamansa uşaq vaxtı oxuyanlar indi onları öz nəvələrinə oxuyurlar.

Korney Çukovski "Timsah" nağılı ilə uşaq ədəbiyyatına qədəm qoyur. Bu nağılın yaranması da sırf təsadüf nəticəsində baş verir. Lakin 1917-ci il inqilabından sonra Çukovski artıq ədəbi tənqid sahəsində istədiyi kimi sözünü deyə bilmirdi. Belə ki, onun azad qələmi yeni reallıqların diqtəsinə uyğunlaşmaq istəmirdi. Qeyri-səmimi tərzdə yazmaq isə yazıçıya yad idi. Odur ki, Çukovski müəyyən qədər də məcburiyyətdən uşaq yazarı olur.

**I Aparıcı:** Lakin Korney Çukovskinin uşaqlar üçün yazdığı şeir və nağılları da inqilabi əhval-ruhiyyəni əks etdirmədiyi, sovet pedaqogikasının prinsiplərinə uyğun gəlmədiyi üçün hər tərəfdən tənqid atəşinə tutulurdu. Bu əsərləri ziyanlı hesab edirdilər. Yazıçı qısa müddət ərzində bir-birininn ardınca özünün ən məşhur uşaq əsərlərini -"Əlüzyuyan", "Qorxunc tarakan", "Telefon", "Fedoranın dərdi","Möcüzə-ağac", "Barmaley", "Aybolit", "Oğurlanmış günəş", "Bibiqonun macəraları" və s. – qələmə alır.

Korney Çukovski eyni zamanda bir neçə povestin də müəllifidir. Bu povestlərdən ən məşhurları "Günəşli" və "Gümüş herb"dir.

**II Aparıcı:** Korney Çukovskinin uşaqlarla dostluğu yarım əsrdən çox davam etmişdir. Özü də dörd uşaq atası olan yazıçını uşaqlarla daimi canlı ünsiyyət olmadan təsəvvür etmək mümkün deyil. Uşaq psixikası ilə də yaxından maraqlanan Çukovski uşaqları, onların sözlərdən necə istifadə etməsini müşahidə etmiş və bu müşahidələri "İkidən beşə kimi" adlı kitabında toplamışdır. Bu kitabın meydana gəlməsi də təsadüf üzündən baş vermişdir. Belə ki, həmin vaxt yazıçı dənizin sahilində şəhərkənarı evində yaşayırdı. Onun pəncərəsinin altında çoxlu sayda uşaqlar analarının, nənələrinin, dayələrinin nəzarəti altında oynayırdılar. Sahildə gəzintilər zamanı uşaqların öz qohumları ilə söhbətlərinə şahid olan yazıçı bu maraqlı, qeyri-adi uşaq məntiqi ilə deyilmiş ifadələri toplayaraq kitab halına salır. Kitab, hər dəfə əlavələrlə birgə 21 dəfə təkrar nəşr olunmuşdur.

**I Aparıcı:** Uzun illər həm də bədii tərcümə ilə məşğul olan Korney Çukovski Mark Tven, Redyard Kiplinq, Oskar Uayld, O.Henri və s. kimi məşhur yazarların əsərlərini rus dilinə tərcümə etmişdir.

Nikolay Alekseyeviç Nekrasovla yanaşı, Aleksandr Blok, Anna Axmatova, Anton Çexov və digər şair və yazıçılar haqqında da elmi əsərlərin müəllifi olan Korney Çukovski Oksford Universitetinin fəxri ədəbiyyat doktoru, Lenin mükafatının və bir çox digər mükafatların laureatıdır.

Onun əsərlərinin qəhrəmanlarına elə yazıçının öz sağlığında abidələr qoyulmuşdur. Bu əsərlər dəfələrlə cizgi filmi kimi ekranlaşdırılmışdır.

**II Aparıcı:** İstedadlı yazıçı, ədədi tənqidçi, tərcüməçi, milyonlarla uşağın sevimli Korney babası Korney Çukovski

özünün Peredelkinodakı evində uşaqlar üçün "Salam, yay!" və "Əlvida, yay!" adlı görüşlər təşkil edirdi, bura məşhur insanlar dəvət olunurdu və sonda tonqal kənarında nəğmələr oxunurdu. Uşaqları çox sevən yazıçı özü də uşaqlar tərəfindən çox sevilirdi.

**I Aparıcı:** Korney Çukovski 1969-cu il oktyabrın 28-də hepatit xəstəliyindən dünyasını dəyişir. Yazıçıya heç də xoş münasibət bəsləməyən sovet məmurları bu haqda qəzetlərdə məlumat verilməsinə imkan vermir və dəfnin mümkün qədər sakit, insanların xəbəri olmadan, səs-küysüz keçirilməsinə çalışırlar. Belə də olur, çıxışlara, zalda oturulmasına imkan verilmədən yazıçını tez-tələsik elə Peredelkinoda dəfn edirlər. Lakin bununla Çukovskini onu sevən milyonların qəlbindən çıxarmaq mümkün olmur. Onun əsərləri və işıqlı xatirəsi əbədi olaraq insanların qəlbində özünə yer etmişdir.

Kitabxanada Korney Çukovskinin nağılları ilə bağlı sual-cavab gecəsinin keçirilməsi məqsədəuyğundur. Sual-cavab gecəsinin nümunəsini təqdim edirik.

**Kitabxanaçı:** Moskva yaxınlığında, Peredelkino qəsəbəsində, çox da böyük olmayan evdə uzun illər hündürboylu, çal saçlı və ölkənin bütün uşaqlarının tanıdığı bir insan yaşayırdı. O, bir çox məşhur nağıl qəhrəmanlarının yaradıcısı idi. Bu gözəl insanın adı Korney Çukovski idi. Bəs siz onun əsl adının nə olduğunu bilirsinizmi?

**I Oxucu:** Nikolay Vasilyeviç Korneyçukov.

**Kitabxanaçı:** O, hər səhər tezdən, günəş doğarkən yuxudan durar və işə başlayardı. Yazda və yayda bostanda və evin qarşısındakı çiçək bağçasında işləyər, qışda yoldakı qarı təmizləyərdi. Bir neçə saat işləyəndən sonra gəzintiyə çıxardı. O, çox yüngül və iti yerişə malik idi. Bəzən də uşaqlarla yarışardı. O, məhz belə uşaqlar üçün də nağıllar yazırdı. İndi siz deyin, Korney Çukovski neçənci ildə və harada anadan olmuşdur?

**II Oxucu:** Korney Çukovski 1882-ci il martın 29-da Peterburqda anadan olmuşdur.

**Kitabxanaçı:** Korney Çukovskinin hansı nağıllarını tanıyırsınız?

**I Oxucu:** "Əlüzyuyan", "Qorxunc tarakan", "Milçək-vizilçək", "Barmaley", "Fedoranın dərdi", "Aybolit", "Telefon", "Oğurlanmış günəş".

**Kitabxanaçı:** Korney Çukovskinin əsərlərində çox zaman heyvanlar əsas obrazlar kimi çıxış edirlər. Ən çox Timsah əsas qəhrəman olur. Yadınıza sala bilərsinizmi, hansı nağıllarda bu personaj iştirak edir?

**I iştirakçı:** "Timsah", "Əlüzyuyan" (Tavriya bağında uşaqları ilə gəzərkən), "Barmaley" (Timsah qulduru udur), "Qorxunc tarakan" (Timsah qorxduğundan qurbağanı udur) və s.

**Kitabxanaçı:** Siz necə hesab edirsiniz, Əlüzyuyan pinti oğlanın düşmənidir, yoxsa yox?

**II iştirakçı:** Əlüzyuyan düşmən deyil, əksinə, o oğlana pis vərdişlərindən qurtulmaqda kömək edir.

**Kitabxanaçı:** Əlüzyuyan harada çimməyə, təmizlənməyə çağırırdı?

**I iştirakçı:** "Çəlləkdə, təknədə, ləyəndə, çayda, okeanda".

**Kitabxanaçı:** Çukovskinin hansı nağılında əsas personaj kimi səsin göndərilməsi və qəbul olunması üçün olan cihaz çıxış edir?

**II iştirakçı:** "Telefon".

**Kitabxanaçı:** "Qorxunc tarakan" nağılındakı tarakan hansı mənfi xüsusiyyətlərə malikdir?

**I iştirakçı:** Tarakan şəri, zorakılığı təcəssüm etdirir.

**Kitabxanaçı:** Milçək-vizilçək eyni adlı poemada hansı bayramı qeyd edir? Aşağıdakı variantlardan doğru olanı seçin: a) yeni il; b) ad günü; c) 8 mart.

**II iştirakçı:** Ad günü.

**Kitabxanaçı:** Uşaqlar, necə hesab edirsiniz, Çukovskinin hər bir nağılının əsasında hansı ortaq ideya dayanır?

**I iştirakçı:** Xeyir və şərin mübarizəsi, xeyirin şər üzərində qələbəsi.

**Kitabxanaçı:** "Oğurlanmış günəş" nağılında Timsah hansı nəhəng əşyanı oğurlayır?

**II iştirakçı:** Timsah "səmadakı günəşi udur".

**Kitabxanaçı:** Doktor Aybolit xəstələri müalicə etmək üçün hansı qitəyə gedir? Cavab variantlarından doğru olanını seçin: a) Amerika; b) Asiya; c) Afrika.

**I iştirakçı:** Afrika.

**Kitabxanaçı:** "Qorxunc tarakan" nağılında ağcaqanadlar hansı kürəcik üzərində uçurlar?

**I iştirakçı:** Hava kürəciyi.

**Kitabxanaçı:** Hansı qəhrəman qorxunc cani olur, lakin sonradan islah olunaraq tərbiyə olunur?

**II iştirakçı:** Barmaley.

**Kitabxanaçı:** Doktor Aybolit xəstə heyvanları Afrikada nəyə qonaq edirdi?

**I iştirakçı:** Qoqol-moqola.

**Kiabxanaçı:** Doktor Aybolitin Afrikaya gedib çıxmasına kimlər kömək edirlər?

**II iştirakçı:** Canavarlar, balina və qartallar.

**Kitabxanaçı:** İndi isə mən sizə bu nağıl qəhrəmanları adlarının hansı personajlara aid olduğunu soruşacağam, siz də onları tapmağa çalışın. Aybolit?

**I iştirakçı:** Doktor.

**Kitabxanaçı:** Barmaley?

**II iştirakçı:** Quldur.

**Kitabxanaçı:** Fedora?

**I iştirakçı:** Nənə.

**Kitabxanaçı:** Karakula?

**II iştirakçı:** Akula.

**Kitabxanaçı:** Totoşka, Kokoşka.

**II iştirakçı:** Balaca timsahlar.

**Kitabxanaçı:** Milçək-vizilçək?

**I iştirakçı:** Milçək.

**Kitabxanaçı:** Barabek?

**II iştirakçı:** Qarınqulu.

**Kitabxanaçı:** Kürən, bığlı nəhəng?

**I iştirakçı:** Tarakan.

**Kitabxanaçı:** Korney Çukovskinin hansı əsərində qabqacaq öz sahibəsini tərbiyə edir?

**II İştirakçı:** "Fedoranın dərdi".

**Kitabxanaçı:** Korney Çukovskinin hansı nağılının əsas devizi belədir: "Təmizlik – sağlamlığın rəhnidir"?

**I iştirakçı:** "Əlüzyuyan".

**Kitabxanaçı:** "Telefon" nağılında qaloşlar Timsaha nəyə görə lazım idi? Variantlardan doğru olanını seçin: a) çəməndə gəzmək; b) şam yeməyində yemək; c) ad günündə begemota hədiyyə etmək üçün.

**II iştirakçı:** Şam yeməyində yemək üçün.

Kitabxanada aşağı sinif şagirdlərinin iştirakı ilə Korney Çukovskinin "Əlüzyuyan" şeirini səhnələşdirmək olar. Bunun üçün iştirakçı uşaqları şeirdəki obrazların qiyafəsində geyindirmək çox məqsədəuyğun olardı. Daha sonra şeir uşaqların ifasında təqdim olunur.

Çarpayım yırğalandı,
yorğanım yorğalandı,
döşəyim havalandı,
balıncım da atıldı.
uçanlara, qaçanlara qatıldı...
Əl atdım mən lampaya,
üz qoydu o qapıya,
dürtdü özün sobaya..
Kitabı yada saldım,
yenə məəttəl qaldım.
Mindi o cin atına,
düşdü kətil altına
Hirsimdən yandı içim,
istədim bir çay içim,
samovara yanaşdım,
o qaçdıqca mən qaçdım.
Bu nə işdir ay aman,
hərlənir hər şey, inan.
nə baş verib nagəhan,
halım yamandı, yaman.
Ütü çəkmə dalınca,
qoşuldular balınca.
Balınc səs-küy salınca,
maşa döndü qılınca,
məni saldı girincə.
Qab-qacaq oynaqlaşır,
kəllə-mayallaq aşır...
Elə bu vaxt o yandan,
göründü əlüzyuyan.
O, axsaya-axsaya
gəlib məni haqladı.
başını yırğaladı:

“Ay tənbəl, pinti uşaq,
gör nə kökə düşmüsən!
Bir üst-başına bax,
hansı cəngə düşmüsən?
Sir-sifətin bulanmış,
cin-şəyatin yalanmış.
Boynunda çəkmə yağı,
burnunda da mürəkkəb.
Əlin kömürsayağı,
yanağın ləkə-ləkə!
İş o yerə çatıb ki,
corabların, şalvarın
tamam kirə batıb ki...
Axı, sübh açılanda,
yuyunur lap siçan da,
pişik də, pıspısa da.,
çəməndə gül-çiçək də,
cücü-mücü, böcək də.
Bir sən kirli qalmısan,
utanıb qızarmırsan?
Mənə də əlahəzrət
Əlüzyuyan deyərlər!
Bütün əlüzyuyanlar,
Baş komandan deyərlər!
Bilirsənmi, mən kiməm?
Pintilərə qənimək!
Bir ayaq tappıldatsam,
əlimi şappıldatsam,
əsgərlərim axışar,
ətrafıma yığışar.
Sabunlayar, kisələr,
sürtər, yonar, rəndələr.

Sənin o tərs başına,
isti suyu əndərər!"
Mis teşti döyəclədi,
"ərənlər"in səslədi;
Başıma su töküldü,
"moçalka"lar cumuşdu,
mənim ətim töküldü.
Əlüzyuyan demişdi:
"Yuyundurun bir bunu,
kisələyin tənbəli!
Çağır gəlsin sabunu,
Çimməlidir, çimməli!"
Sabun gəldi, nə gəldi,
başımda köpükləndi,
saçlarımla tutaşdı,
çirkab ilə qapışdı.
"Moçalka" dəli kimi,
sürtür, didir dərimi.
Yaxa qurtarıb ondan,
küçəyə qaçdım, bir an.
əkildim bağa sarı,
aşıb keçdim hasarı.
O da lərzəyə gəldi,
hədələyib, dikəldi.
Bir də gördüm qarşıma,
yeriyir Timsah baba!
Yanında bir ikicə
dıqqılı timsah bala.
"Moçalka"nı nə tutdu,
"Hop" eləyib də uddu!
Sonra bir nərə çəkdi,
məni məşhərə çəkdi:

Düşmüsən gör nə hala!
Di tez qayıt, qaç evə!
Əl-üzünü yu, bala,
Başına əlac elə!
Yoxsa bir toy tutaram,
tapdayaram, udaram”.
Qorxudan götürüldüm,
evimizə birbaşa.
Əlüzyuyana dedim:
“Ay baba, gəl barışaq!
Hanı sabun?
Gəl görək,
təmiz olsun
əl gərək.
Ləkələri sil, canım,
kirdən qurtarsın canım.
Ağart mənim üzümü,
yerə salma sözümü!”
Bir də gördüm, şalvarım,
ayağıma sarıldı.
Ləzzətli qoğal, kökə,
məni görcək saraldı.
Dürmək, başıma xeyir,
“məni nuş elə!”, deyir.
Kitablarım, dəftərim,
mənə təzim etdilər.
“Hesab”, “Əlifba”, filan
Durub yallı getdilər.
Bu zaman Əlüzyuyan,
Yəni ki, Baş komandan;
kisənin, şotkaların,
sabunların rəisi

(yəqin soyumuş hirsi)
maç elədi üzümdən
“Bax, bu başqa məsələ!
Çıxma daha sözümdən!
Ay mənim  pinti balam!
Razıyam indi, balam!
Əl-üzü yumaq gərək.
Olaq üzüağ gərək.
Təmizkarlar var olsun!
pintilərə ar olsun!”
Yaşasın əlüzyuyan!
Mərhəba sənə, baba!
Mərhəba, ay məhrəba,
Kisə, sabun, diş tozu!
Ləyən olsun, tas olsun,
Yuyunmasaq, uşaqlar,
Hamam küsər, duş ağlar.
Vanna, ya hamam olsun,
Hər saat tamam olsun,
Hər yerdə, hər məkanda,
Sulara salam olsun!”

Kitabxanada Korney Çukovskinin əsərləri əsasında rəsm müsabiqəsinin keçirilməsi də məqsədə müvafiqdir. Müsabiqə iştirakçıları müəyyən olunmuş vaxtda çəkdikləri rəsmləri kitabxanaya təqdim edirlər. Qalib gəlmiş iştirakçılara həvəsləndirici mükafatlar təqdim olunur. Rəsm müsabiqəsi ilə yanaşı bacarıqlı, əl qabiliyyəti olan uşaqlar arasında Korney Çukovskinin əsərlərinin qəhrəmanlarının oyuncaq, fiqur və s. şəklində hazırlanması sahəsində də müsabiqə təşkil etmək olar.

## Ədəbiyyat siyahısı

Azərbaycan dilində

**Çukovski, K.İ.** Seçilmiş əsərləri / rus dil. tərc. ed. T.Elçin, Ə.Şükürlü. - Bakı : Şərq-Qərb, 2007. - 160 s. - (Dünya Uşaq Ədəbiyyatı).

Rus dilində

**Чуковский, К.И.** Айболит ; Мойдодыр и другие сказки. - М. : Оникс 21 век, 2004. - 176 с.

**Чуковский, К.И.** Федорино горе. - Ростов н/Д : Проф-Пресс, 2003. - 8 с.

**Чуковский, К.И.** Стихотворения. - СПб : Академический проект, 2002. - 500 с.

**Чуковский, К.И.** Телефон. - М. : Оникс, 2007. - 47 с.

**Чуковский, К.И.** Муха-цокотуха : Сказки и стихи. - М. : АСТ ; М. : Астрель. - 2002. - 62 с.

**Чуковский, К.И.** Детям : Сказки, стихи, песенки. - М. АСТ ; М. : Астрель. - Минск : Харвест, 2007. - 247 с.

**Чуковский, К.И.** Мойдодыр и другие сказки : Избранное. - Тула : Родничок ; М. : АСТ ; М. : Астрель, 2007. - 125 с.

**Чуковский, К.И.** Сказки Корнея Чуковского. - М. : АСТ ; М. : Астрель, 2006. - 110 с.

**Чуковский, К.И.** Стихи : стихи и загадки. - М. : АСТ ; М. : Астрель, 2006. - 29 с.

**Чуковский, К.И.** Мойдодыр. Федорино горе. Чудо-дерево : Сказки в стихах. - М. : Оникс, 2006. - 63 с.

**Чуковский, К.И.** Любимые сказки и стихи. - М. : АСТ ; М. : Астрель, 2006. - 159 с.

**Чуковский, К.И**. Сказки. - М. Астрель ; М. : Астрель. - 2007. - 174 с.
**Чуковский, К.И.** Приключения Бибигона : Сказки, стихи, загадки. - М. : Махаон, 2008. - 109 с.
**Чуковский, К.И.** Доктор Айболит. Джек-победитель великанов. - М. : Махаон, 2007. -125 с.
**Чуковский, К.И.** Елка : стихи. - Ростов н/Д : Проф-Пресс, 2003. - 10 с.
**Чуковский, К.И.** Лучший подарок : Стихи и загадки. - М. : Астрель, 2007. - 25 с.
**Чуковский, К.И.** Мойдодыр и другие любимые мультики : Сказки. - М. : Астрель. - 2008. - 72 с.
**Чуковский, К.И.** Тараканище : Сказки, стихи, песенки и загадки. - М. : АСТ ; М. : Астрель. - 2002. - 224 с.
**Чуковский, К.И.** Бармалей : Сказки. - М. : Астрель, 2000. - 61 с.
**Чуковский, К.И.** Краденое солнце : сказки в стихах. - М. : Оникс, 2007. - 64 с.
**Чуковский, К.И.** У меня зазвонил телефон… : стихи для детей. - М. : Самовар, 2009. - 113 с.
**Чуковский, К.И.** Все самые лучшие сказки. - Тула : Родничок ; М. : Астрель, 2011. - 125 с.
**Чуковский, К.И.** Ежики смеются : Для чтения родителями детям. - Ростов н/Д : Проф-Пресс, 2013. - 8 с. - (Читаем детям : читаем малышам).
**Чуковский, К.И.** Закаляка и другие стихи. - М. : Эгмонт-Россия ЛТД, 2010. - 48 с.
**Чуковский, К.И.** Мойдодыр : Открой книжку - и странички заговорят! : Книжка-игрушка со звуком для чтения взрослыми детям. - bb М. : Азбукварик Групп, 2007. - 16 с.- (Говорящие сказки).

# Uşaq dünyasının xeyirxah sehrbazı – Korney Çukovski

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:08.04.2017
Tirajı:100
Pulsuz